# Avropa İttifaqı Azərbaycanla birlikdə işləmək arzusundadır



***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edib. Nümayəndəliyin rəhbəri qəbul zamanı bildirib ki, son illər iqtisadiyyatı sürətlə yüksələn Azərbaycan Avropa İttifaqı üçün çox önəmli tərəfdaşdır.***

Görünən budur ki, Avropa qitəsinin ən nüfuzlu təşkilatı iqtisadiyyat, innovasiyalar, ticarət, enerji, investisiyalar, infrastruktur və əməkdaşlıq kimi mühüm sahələrdə Azərbaycanla birlikdə işləmək arzusundadır. Petr Mixalko həmçinin bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni hərtərəfli Sazişin imzalanması üzərində də işlər davam edir.

Bununla yanaşı, Avropa İttifaqı "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində sabit, təhlükəsiz və çiçəklənən Cənubi Qafqazın olmasında maraqlıdır. Avropa İttifaqının rəhbərliyi əmindir ki, Azərbaycan hökuməti Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq prosesində fəal iştirak edəcək.

Azərbaycan dövləti də Avropa İttifaqı ilə sıx əməkdaşlıqda maraqlıdır. Prezident bildirmişdir ki, rəsmi Bakı ilə Avropa İttifaqı arasında çox səmərəli və uğurlu əməkdaşlıq mövcuddur. Belə səmərəli əməkdaşlıq hər iki tərəfin maraqlarına uyğundur. Prezident İlham Əliyev demişdir: "Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik".

Dövlətimizin başçısı sonra qeyd etmişdir ki, on il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi. Bundan sonra bu vacib layihənin icrası üçün hər iki tərəfdən uğurlu əməli addımlar atıldı. Nəticə isə göz qabağındadır: Azərbaycan qazı artıq Avropa bazarındadır.

Bəllidir ki, Azərbaycan ötən ilin payızında İkinci Qarabağ müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə qazanaraq, öz ərazi bütövlüyünü təmin etmişdir. Bu möhtəşəm uğur müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin yüksək qətiyyəti və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində mümkün olmuşdur.

Bu gün postmüharibə dövründə Azərbaycan üçün ən vacib məsələlərdən biri işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasının təmin olunmasıdır. Hazırda Azərbaycan dövləti və xalqımız əl-ələ verib Qarabağın dirçəldilməsi istiqamətində son dərəcə böyük işlər həyata keçirir. Bu işlərin həcmi və vüsəti hər kəsi heyran edir.

Prezident İlham Əliyev qəbul zamanı bəyan etdi ki, rəsmi Bakı Ermənistanla sülh razılaşması, delimitasiya, kommunikasiyaların açılması ilə bağlı danışıqlara başlamağa hazırdır. Bu proses qismən başlanıb. Azərbaycan Prezidenti demişdir: "Lakin düşünürəm ki, əgər Avropa İttifaqı fəal iştirak etsə, – mən belə bir istəyin olduğunu görürəm, – bu, bir çox sahələrdə bizə kömək edə bilər. Ümumilikdə, Cənubi Qafqazda vəziyyət 30 il ərzində olmayan tamamilə yeni bir miqyas ala bilər. Bu da sabitlik, proqnozlaşdırılma və sülhün çox mühüm amili ola bilər".

Bəli, bu gün Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranmışdır. Bölgədə etibarlı sülhün və sabitliyin bərqərar olunması üçün beynəlxalq təşkilatların, o cümlədən, böyük maliyyə imkanlarına malik olan Avropa İttifaqının fəallaşması arzuolunandır.

***İldırım MƏMMƏDOV,***
***Quba Rayon Ağsaqqallar Şurasının sədri***

Xalq qəzeti.- 2021.- 10 oktyabr.- S.3.